Azadlıq Radiosu

AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Anar Məmmədliyə 13 , Anar Abdullayevə 12 il həbs verildi

8 dəqiqə öncə




Anar Məmmədli

Sentyabrın 7-də Bakı Ağır Cinayətlər Məhkəməsində Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin (SMDT) həbsdə olan sədri **Anar Məmmədli** və ictimai fəal **Anar Abdulla**nın cinayət işi üzrə yekun məhkəmə iclası keçirilib.

Hakim Aygün Qurbanovanın sədrliyi ilə keçirilən məhkəmə prosesində çıxarılan hökmə əsasən, A.Məmmədli 13 il, A.Abdulla isə 12 il müddətinə azadlıqdan məhrum edilib.

A.Məmmədli cəzasını ciddi rejimdə çəkməlidir.

Məmmədli son sözündə özünə qarşı irəli sürülən ittihamları siyasi sifarişli və əsassız adlandırıb, bu cinayət təqibini isə "siyasi tamaşa" kimi qiymətləndirib.

**"Ötən dövr ərzində cərəyan edən məhkəmə prosesi mənim qənaətimi yanıltmadı. Bu müddət ərzində məhkəmə nə ətraflı və müfəssəl araşdırma apardı, nə istintaqın tutarsız və sübutsuz ittihamlarını sorğuladı, nə də mənim vəsatətlərimi təmin etdi"**, – o bildirib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur